# Ezra

*Kitabı*

***Giriş***

*«Ezra»* və *«Nehemya»* Kitabları vəhdət təşkil edib *«Salnamələr»* Kitabının davamıdır. Bu kitab yəhudilərin Babil sürgünlüyündən qayıtmasından və Yerusəlimdəki mə'bədinin bərpa olunmasından danışır. Kitabın müəllifi sübut edir ki, yəhudilərin qovulmasına və padşahlığın dağılmasına baxmayaraq onlar yenə də Allahın seçilmiş xalqı olaraq qalırlar. Kitabın baş qəhrəmanı ilahiyyatçı, Allahın qanununu yaxşı bilən və Ona sadiq olan Ezradır. O öz imanı ilə İsrailin mə'nəvi irsini qorumaq üçün xalqın ruhani və ictimai həyatının bərpasına kömək edir.

Kitabda hadisələr belə ardıcıllıqla qələmə alınıb:

Sürgündə olan yəhudilərin bir hissəsinin Fars padşahı Kirin əmri ilə vətənə qayıtması.

Mə'bədin yenidən tikilməsi və təqdis olunması; Yerusəlimdə Allaha ibadətin bərpası.

Sürgündə olan yəhudilərin başqa bir hissəsinin Yerusəlimə qayıtması və nikah problemi.

***Kitabın məzmunu:***

Sürgündən Yəhudaya birinci qayıdanlar 1:1-2:70

Mə'bədin yenidən tikilməsi və təqdis edilməsi 3:1-6:22

Ezranın başqa sürgün olunanlarla birgə qayıtması 7:1-10:44

### *Yerusəlimdəki mə'bədin bərpası*

*(2Saln. 36:22-23)*

1 1 Rəbb Fars padşahı Kirin
hökmranlığının birinci ilində
Yeremyanın dili ilə dediyi sözü yerinə
yetirmək üçün Kiri ruhlandırdı. Ona görə Kir
padşahlığının bütün ərazisində yazılı və şifahi
e'lan etdi: 2 «Budur, Fars padşahı Kir belə
deyir: "Göylərin Allahı Rəbb dünyanın bütün
padşahlıqlarını mənə verdi və Yəhudanın
Yerusəlim şəhərində Öz mə'bədini tikməyi
mənə əmr etdi. 3 Aranızda Onun xalqına
mənsub olanların hamısına qoy Allahı yar
olsun! Qoy onlar Yəhudanın Yerusəlim
şəhərinə qalxsın və İsrailin Allahı Rəbbin
mə'bədini tiksinlər. Yerusəlimdə səcdə
qılınan Allah Odur. 4 Sağ qalan İsraillilər
hansı əhali arasında yaşayırsa, qoy onlar
Yerusəlimdəki Allah mə'bədinə verəcəkləri
könüllü ianələrdən başqa, qızıl-gümüş, əşya
və heyvanlar verməklə bu adamlara kömək
etsinlər"».

5 Yəhuda, Binyamin qəbilələrinin nəsil
başçıları, kahinlərlə Levililər, eləcə də Allahın
ruhlandırdığı bütün adamlar Rəbbin
Yerusəlimdəki mə'bədini tikmək üçün yola
düşməyə hazırlaşdılar. 6 Aralarında yaşadıqları
yerli əhalinin hamısı verdikləri könüllü
ianələrdən başqa, qızılla, gümüş qablarla,
əşyalarla, heyvanlarla və qiymətli şeylərlə
onlara kömək etdilər. 7 Padşah Kir
Navuxodonosorun Rəbbin Yerusəlimdəki
mə'bədindən götürüb öz allahlarının
mə'bədinə qoyduğu əşyaları çıxartdı. 8 Fars
padşahı Kir onları xəzinədar Mitredatın əli ilə
oradan çıxardaraq hamısını sayıb Yəhuda
rəhbəri Şeşbassara verdi. 9 Onların sayı bu
qədər idi: otuz qızıl ləyən, min gümüş ləyən,
iyirmi doqquz bıçaq, 10 otuz qızıl boşqab, bir-
birinə oxşayan dörd yüz on gümüş boşqab və
min ədəd də başqa qablar. 11 Qızıl və gümüş
əşyaların hamısı beş min dörd yüz ədəd idi.
Sürgündə yaşayanlar Babildən Yerusəlimə
qaytarılanda Şeşbassar bu əşyaların hamısını
onlarla bərabər gətirdi.

### *Sürgündən Yəhudaya qayıdanların siyahısı*

*(Neh. 7:4-73)*

2 1 Babil padşahı Navuxodonosorun
Babilə apardığı əsirlər yaşadıqları
vilayətdən Yerusəlimə və Yəhudadakı öz
şəhərlərinə qayıtdılar.

2 Onlar Zerubbabil, Yeşua, Nehemya,
Seraya, Reelaya, Mordokay, Bilşan, Mispar,
Biqvay, Rexum, Baananın başçılığı ilə
gəldilər.

Sürgündən qayıdan İsraillilərin sayı:

3 Paroş övladları – 2172 nəfər;
4 Şefatya övladları – 372 nəfər;
5 Arah övladları – 775 nəfər;
6 Yeşua və Yoav nəslindən Paxat-Moav övladları – 2812 nəfər;
7 Elam övladları – 1254 nəfər;

***1:1*** *– Yer. 25:11; 29:10*
***1:2*** *– Yeş. 44:28*

8 Zattu övladları – 945 nəfər;
9 Zakkay övladları – 760 nəfər;
10 Bani övladları – 642 nəfər;
11 Bevay övladları – 623 nəfər;
12 Azqad övladları – 1222 nəfər;
13 Adoniqam övladları – 666 nəfər;
14 Biqvay övladları – 2056 nəfər;
15 Adin övladları – 454 nəfər;
16 Ater, yə'ni Xizqiya övladları – 98 nəfər;
17 Besay övladları – 323 nəfər;
18 Yora övladları – 112 nəfər;
19 Xaşum övladları – 223 nəfər;
20 Gibbar övladları – 95 nəfər;
21 Bet-Lexem övladları – 123 nəfər;
22 Netofa sakinləri – 56 nəfər;
23 Anatot sakinləri – 128 nəfər;
24 Azmavet övladları – 42 nəfər;
25 Qiryat-Arim, Kefira və Beerot övladları – 743 nəfər;
26 Rama və Geva övladları – 621 nəfər;
27 Mikmas sakinləri – 122 nəfər;
28 Bet-El və Ay sakinləri – 223 nəfər;
29 Nevo övladları – 52 nəfər;
30 Maqbiş övladları – 156 nəfər;
31 Digər Elam övladları – 1254 nəfər;
32 Xarim övladları – 320 nəfər;
33 Lod, Xadid və Ono övladları – 725 nəfər;
34 Yerixo övladları – 345 nəfər;
35 Senaa övladları – 3630 nəfər.

36 Kahinlər:
Yeşua nəslindən Yedaya övladları – 973 nəfər;
37 İmmer övladları – 1052 nəfər;
38 Paşxur övladları – 1247 nəfər;
39 Xarim övladları – 1017 nəfər.

40 Levililər: Hodavya nəslindən yaranan
Yeşua və Qadmiel övladları – 74 nəfər.

41 İlahiçilər: Asəf övladları – 128 nəfər.

42 Mə'bəd qapıçıları: Şallum övladları, Ater
övladları, Talmon övladları, Aqquv övladları,
Xatita övladları və Şovay övladları ilə
birlikdə 139 nəfər.

43 Mə'bəd qulluqçuları: Sixa övladları,
Xasufa övladları, Tabbaot övladları,
44 Qeros
övladları, Siaha övladları, Padon övladları,
45 Levana övladları, Xaqava övladları, Aqquv
övladları,
46 Xaqav övladları, Şamlay övladları,
Xanan övladları,
47 Giddel övladları, Qaxar
övladları, Reaya övladları,
48 Resin övladları,
Neqoda övladları, Qazzam övladları,
49 Uzza
övladları, Paseah övladları, Besay övladları,
50 Asna övladları, Meunim övladları, Nefusim
övladları,
51 Baqbuq övladları, Xaqufa
övladları, Xarxur övladları,
52 Baslut övladları,
Mexida övladları, Xarşa övladları,
53 Barqos
övladları, Sisra övladları, Tamax övladları,
54 Nesiah övladları, Xatifa övladları.

55 Süleymanın ə'yanlarının nəslindən: Sotay
övladları, Hassoferet övladları, Peruda
övladları,
56 Yela övladları, Darqon övladları,
Giddel övladları,
57 Şefatya övladları, Xattil
övladları, Pokeret-Hassevayim övladları, Ami
övladları.
58 Mə'bəd qulluqçuları ilə
Süleymanın ə'yan qullarının övladları – cəmi
392 nəfər.

59 Tel-Melahdan, Tel-Xarşadan, Keruvdan,
Addondan, İmmerdən qayıdan, ancaq
ailələrinin və nəsillərinin İsrail övladlarından
olduğunu sübut edə bilməyənlər bunlardır:
60 Delaya övladları, Toviya övladları, Neqoda
övladları – 652 nəfər.

61 Kahinlərin nəslindən: Xovaya övladları,
Haqqos övladları, Gileadlı Barzillayın
qızlarından arvad alıb qayınatasının adını
götürən Barzillay övladları.
62 Onlar nəsil
şəcərəsini axtardılar, lakin öz adlarını tapa
bilmədilər və buna görə murdar sayılaraq
kahinlikdən çıxarıldılar.
63 Yəhuda valisi
onlara əmr edib belə dedi: «Urim və
Tummimi işlədən bir kahin olmayınca onlar
ən müqəddəs yeməklərdən yeməsin».

64 Bütün camaat birlikdə 42 360 nəfər idi.
65 Bundan başqa 7337 nəfər kölə və kənizlər,
200 nəfər kişi və qadından ibarət ilahiçi var
idi.
66 Bu adamların 736 atı, 245 qatırı,
67 435
dəvəsi, 6720 eşşəyi var idi.

68 Rəbbin Yerusəlimdəki mə'bədinə gələn
zaman bə'zi nəsil başçıları Allahın mə'bədini
öz yerində tikmək üçün könüllü ianələr
verdilər.
69 Bu iş üçün yığılan xəzinəyə imkan
daxilində altmış bir min darik[1] qızıl, beş min
mina gümüş və yüz kahin geyimi verdilər.

70 Kahinlər, Levililər, xalqın bə'ziləri,
ilahiçilər, mə'bəd qapıçıları və qulluqçuları öz
şəhərlərində yerləşdilər. Beləliklə, İsraillilər
isə öz şəhərlərində yerləşdilər.

---

[1] **2:69** *Darik* – qızıl sikkə.
***2:70*** *– 1Saln. 9:2; Neh. 11:3*

### *Yerusəlimdəki qurbangahın tikilməsi*

3 [1] Artıq İsraillilər öz şəhərlərində idi.
Yeddinci ay çatanda xalq bir nəfər kimi
Yerusəlimdə toplandı. [2] Yosadaq oğlu Yeşua
ilə kahin qardaşları və Şealtiel oğlu
Zerubbabillə qardaşları İsrailin Allahının
qurbangahını qurdular ki, Allah adamı
Musanın Qanununda yazıldığı kimi üstündə
yandırma qurbanları təqdim edilsin. [3] Ətrafda
yaşayan xalqlardan qorxmalarına baxmayaraq
qurbangahı əvvəlki bünövrə üzərində qurdular.
Sonra onun üzərində səhər-axşam Rəbbə
yandırma qurbanları təqdim etdilər. [4] Yazıya
görə Çardaqlar bayramı keçirdilər və qaydaya
görə günbəgün müəyyən miqdarda gündəlik
yandırma qurbanları təqdim etdilər. [5] Sonra
daimi yandırma qurbanları verdilər. Təzə Ay
mərasimlərinin, eləcə də Rəbbin təqdis etdiyi
bütün bayramların təqdimlərini və hamının
könüllü olaraq Rəbbə etdiyi təqdimləri
verdilər. [6] Rəbbin mə’bədinin bünövrəsinin
qoyulmamasına baxmayaraq onlar yeddinci
ayın birinci günündə Rəbbə yandırma
qurbanları təqdim etməyə başladılar.

### *Mə’bədin bünövrəsinin qoyulması*

[7] Daşyonanlarla dülgərlərə pul verdilər.
Fars padşahı Kirdən izin aldıqlarına görə
Livandan dəniz yolu ilə Yafoya sidr ağacları
gətirmələri üçün Sidonlularla Surlulara
yemək-içmək və zeytun yağı verdilər.
[8] Allah mə’bədinə, Yerusəlimə gəlişlərinin
ikinci ilinin ikinci ayında Şealtiel oğlu
Zerubbabil və Yosadaq oğlu Yeşua ilə digər
qardaşları – kahinlər, Levililər, əsirlikdən
Yerusəlimə qayıdanların hamısı işə başladılar.
İyirmi və ondan yuxarı yaşda olan Levililəri
Rəbbin mə’bədinin tikinti işinə nəzarətçi
tə’yin etdilər. [9] Levililərdən Yeşua və
övladları ilə qardaşları, Hodavya[2] nəslindən
törənən Qadmiellə övladları, Xenadad
övladları, nəvələri və qardaşları Allahın
mə’bədində işləyənlərə nəzarət etdilər.
[10] Bənnalar Rəbbin mə’bədinin təməlini
qoyan zaman İsrail padşahı Davudun qoyduğu
qaydaya əsasən kahinlər xüsusi libas geyinib
əllərindəki kərənaylarla, Asəf övladlarından
olan Levililərsə sinclərlə Rəbbə həmd etmək
üçün öz yerlərini tutdular. [11] Onlar Rəbbə
həmd və şükür edib növbə ilə Onu tərənnüm
edərək belə deyirdilər: «Rəbb yaxşıdır, çünki
İsrailin üzərində məhəbbəti əbədidir». Onlar
Rəbbə həmd edəndə bütün xalq ucadan
qışqırdı, çünki Rəbbin mə’bədinin bünövrəsi
qoyulmuşdu. [12] Əvvəlki mə’bədi görmüş bir
çox qoca kahinlər, Levililər və nəsil başçıları
mə’bədin bünövrəsinin qoyulduğunu görəndə
hönkürüb ağladılar, bir çoxları isə sevincdən
haray çəkdilər. [13] Xalq gurultulu sevinc səsləri
ilə ağlaşma səslərini bir-birindən ayıra
bilmirdi, çünki onların gurultu ilə qopan haray
səsləri uzaqlarda eşidilirdi.

### *Samariyalılar mə’bəd tikintisinə mane olur*

4 [1] Yəhudalıların və Binyaminlilərin
düşmənləri eşitdilər ki, sürgündən
qayıdanlar İsrailin Allahı Rəbb üçün mə’bəd
tikirlər. [2] Onlar Zerubbabilə və nəsil
başçılarına yaxınlaşıb belə dedi: «Qoy biz də
sizinlə bərabər bu mə’bədi tikək, çünki biz də
sizin kimi Allahınıza sitayiş edirik. Bizi
buraya gətirən Aşşur padşahı Esar-Xaddonun
dövründən bəri sizin Allaha qurban təqdim
edirik». [3] Lakin Zerubbabil, Yeşua və İsrailin
digər nəsil başçıları onlara belə dedilər:
«Allahımızın evini qurmaq üçün sizin bizimlə
heç bir ortaq işiniz yoxdur. Biz özümüz əlbir
olaraq Fars padşahı Kirin əmrinə əsasən
İsrailin Allahı Rəbbə mə’bəd tikəcəyik».
[4] Onda bu ölkənin xalqı Yəhuda xalqının
əllərini işdən soyutmaqla tikinti işində onlara
əziyyət verdi. [5] Bu xalq Yəhudilərin
məqsədlərini boşa çıxarmaq üçün Fars
padşahları olan Kirin dövründən Daranın
dövrünə qədər onlara qarşı çıxaraq özlərinə
muzdla məsləhətçilər tutdu. [6] Onlar Axaşveroş
padşah olanda, onun hökmranlığının
başlanğıcında Yəhuda və Yerusəlimdə
yaşayanların əleyhinə bir ittiham məktubu
yazdılar.

---

***3:1*** *– Neh. 8:1*
***3:2*** *– Çıx. 27:1*
***3:3*** *– Say. 28:1-8*
***3:4*** *– Say. 29:12-38*
***3:5*** *– Say. 28:11-29:39*
[2] **3:9** *Hodavya* – ibrani mətnində *Yəhuda* yazılmışdır. Bax: Ezr. 2:40, Neh. 7:43.
***3:10*** *– 1Saln. 25:1*
***3:11*** *– 1Saln. 16:34; 2Saln. 5:13; 7:3; Zəb. 100:5; 106:1; 107:1; 118:1; 136:1; Yer. 33:11*
***4:2*** *– 2Pad. 19:37; Yeş. 37:38*
***4:6*** *– Est. 1:1*

7 Fars padşahı Artaxşastanın[3] dövründə
Bişlam Mitredat, Taveel və digər yoldaşları
padşah Artaxşastaya məktub yazdı. Məktub
Arami dilində yazılaraq[4] tərcümə edildi:
8 Sərkərdə Rexum və mirzə Şimşay padşah
Artaxşastaya Yerusəlimi ittiham edən bir
məktub yazdı. 9 Sonra məktuba sərkərdə
Rexumla mirzə Şimşay və qalan yoldaşları,
hakimlər, əmirlər, qulluqçular, Farslar,
Ereklilər, Babillilər, Şuşanlılar, yə'ni
Elamlılar 10 böyük və şanlı Aşurbanipalı əsir
apararaq Samariya şəhərlərində və Fərat
çayının qərb torpaqlarında yerləşdirdiyi
xalqlardan imza topladılar.
11 Padşah Artaxşastaya məktubu bu surətdə
göndərdilər:

«Padşah Artaxşastaya

Fərat çayının qərb torpaqlarında yaşayan
qullarından.

12 Padşaha mə'lum olsun ki, sizin
yanınızdan qayıdan Yəhudilər bizim yanımıza
– Yerusəlimə gəlib bu pis, üsyankar şəhəri
bərpa edirlər. Divarları hörüb qurtardılar və
binaların təməlini bərpa etdilər. 13 Padşaha
mə'lum edirik ki, əgər bu şəhər bərpa edilərsə,
divarları hörülüb qurtararsa, onlar sənə vergi,
xərac və gömrük verməyəcəklər. Bununla da
padşahın gəlirinə böyük ziyan dəyəcək.
14 Əgər indi bu sarayın duzu ilə dolanırıqsa,
gözümüz önündə padşaha ziyan dəyməsini
görmək bizə yaraşmaz. Ona görə də padşaha
bu xəbəri göndərib belə mə'lum edirik: 15 Qoy
ata-babalarının dəftərxanası axtarılsın. Qeyd
kitablarında bu şəhər haqqında mə'lumat
tapanda biləcəksiniz ki, bu şəhər həm
üsyankar, həm də padşahlar və dövlətlər üçün
zərərlidir. Qədimdən bəri oradan həmişə
xəyanət törəyib və bunun üçün şəhər xarabaya
çevrilib. 16 Padşaha mə'lum edirik ki, əgər bu
şəhər bərpa edilərsə və divarları tikilib
qurtararsa, sənin Fərat çayının qərb
torpaqlarından payın olmayacaq».

17 Padşah belə cavab göndərdi:

«Sərkərdə Rexuma, mirzə Şimşaya və
Samariya ilə Fərat çayının digər qərb
torpaqlarında yaşayan yoldaşlarına salamlar!

[3] **4:7** *Artaxşasta* – Azərbaycanda indiki tarixi ədəbiyyatlarda Artakserks.
[4] **4:7** 4:8-6:18-ə qədər olan mətn o dövrün rəsmi dili olan arami dilində yazılmışdır.

18 Bizə göndərdiyiniz məktub hüzurumda
tərcümə edildi. 19 Ona görə mən əmr verdim
və əmrimə əsasən istintaq aparıldı. Bu şəhərin
sakinlərinin qədimdən bəri padşahlara qarşı
üsyan qaldırması təsdiq olundu. Üsyankarlıq
və xəyanət bu şəhərin daxilindən baş qaldırıb.
20 O zaman Yerusəlimi idarə edən qüdrətli
padşahlar var idi. Fərat çayının qərbindəki
bütün torpaqlar üzərində bu padşahlar
hökmranlıq edirdilər. Buranın əhalisi isə
onlara xərac, vergi və gömrük verirdi. 21 İndi
əmr verin, bu adamlar işi dayandırsınlar və
mən əmr verənə qədər bu şəhəri bərpa
etməsinlər. 22 Bu işə e'tinasız yanaşmaqdan
çəkinin. Niyə şər artıb padşahlığıma ziyan
vursun?»

23 Padşah Artaxşastanın məktubunun surəti
Rexumla mirzə Şimşayın və yoldaşlarının
qarşısında oxunanda onlar tələsik Yerusəlimə
Yəhudilərin yanına getdilər. Onların işini
zorla, güclə dayandırdılar. 24 Beləliklə,
Allahın Yerusəlimdəki mə'bədinin tikinti işi
dayandırıldı və bu iş Fars padşahı Daranın
hökmranlığının ikinci ilinə qədər ləngidi.

### *Tikintinin davam etdirilməsi*

5 1 Peyğəmbərlərdən peyğəmbər
Haqqayla İddo oğlu Zəkəriyyə Yəhudada
və Yerusəlimdə yaşayan Yəhudilərə İsrail
Allahının adı ilə peyğəmbərlik etdi. 2 O zaman
Şealtiel oğlu Zerubbabil və Yosadaq oğlu
Yeşua işə başlayaraq Allahın Yerusəlimdəki
mə'bədinin tikintisini davam etdirdilər.
Allahın peyğəmbərləri də onlarla idi və onlara
kömək etdi.

3 O vaxtlar Fərat çayının qərb torpaqların
valisi olan Tattenay, Şetar-Boznay və
yoldaşları onların yanına gəlib dedi: «Bu
mə'bədi bərpa etmək və tikintisini qurtarmaq
üçün sizə kim icazə verib?» 4 Onda biz onlara
bu binanı tikənlərin adlarını bildirdik.
5 Allahın nəzəri Yəhudi ağsaqqallarının
üzərinə yönəlmişdi. Ona görə bu işin sorağı
Daraya çatana və bu barədə məktubla cavab
qayıdanadək onlar Yəhudilərin işini
dayandırmadılar.

6 Fərat çayının qərb torpaqlarının valisi
Tattenay, Şetar-Boznay və yoldaşları, Fərat
çayının qərb torpaqlarındakı mə'murlar

***5:1** – Ezr. 6:14; Haq. 1:1; Zək. 1:1*
***5:2** – Haq. 1:12; Zək. 4:6-9*
***5:2** – Zək. 3:1*

padşah Daraya bu surətdə məktub yolladı.
7 Ona yolladıqları məktubda belə yazılmışdı:

«Padşah Daraya böyük ehtiramla salamlar!

8 Padşaha mə'lum olsun ki, biz Yəhuda vilayətindəki böyük Allahın mə'bədinə getdik. Mə'bəd böyük daşlardan tikilmiş, divarların içərisinə dirəklər qoyulmuşdur. Bu iş sə'ylə
görülərək uğurla idarə edilir. 9 O zaman oranın
ağsaqqallarından soruşub belə dedik: "Bu mə'bədi bərpa etmək və tikintisini qurtarmaq
üçün sizə kim icazə verib?" 10 Həm də
onlardan bu işin başçılarının adını soruşduq ki, bunları yazaraq sizə bildirək.

11 Onlar bizə belə cavab verdilər: "Biz göylərin və yerin Allahının qullarıyıq. Bundan bir çox il əvvəl tikilən mə'bədi bərpa edirik. Vaxtı ilə oranı İsrailin böyük padşahı
tikib başa çatdırmışdı. 12 Lakin atalarımız
göylərin Allahını qəzəbləndirdiyi üçün Allah onları Babil padşahı Xaldeyli Navuxodonosora təslim etdi. O da bu mə'bədi xarabaya çevirdi və xalqını Babilə əsir apardı.
13 Lakin Babil padşahı Kirin hakimiyyətinin birinci ilində padşah Kir Allahın mə'bədinin
bərpası üçün əmr verdi. 14 Həmçinin Allahın
Yerusəlimdəki mə'bədindən Navuxodonosorun götürüb Babil mə'bədinə apardığı qızıl və gümüş qabları padşah Kir Babildəki mə'bəddən çıxartdı. Onları vali tə'yin etdiyi Şeşbassar adlı bir adama verərək
dedi: 15 ‹Bu əşyaları götürüb get,
Yerusəlimdəki mə'bədə qoy. Allahın mə'bədi
qoy öz yerində bərpa olunsun›. 16 O zaman
həmin Şeşbassar gəlib Allahın Yerusəlimdəki mə'bədinin təməlini qoydu. O zamandan indiyə qədər bu mə'bəd tikilir, lakin hələ tamamlanmayıb".

17 İndi padşahın xoşuna gələrsə, qoy Babil sarayındakı dəftərxana axtarılaraq Allahın Yerusəlimdəki mə'bədinin bərpası üçün padşah Kirin verdiyi əmr üzə çıxarılsın. Sonra isə bu iş barədə padşah öz iradəsini bizə bildirsin».

### *Dara Kirin fərmanını təsdiq edir*

6 1 O zaman padşah Daranın verdiyi əmrə əsasən Babil xəzinəsində olan
dəftərxana axtarıldı. 2 Midiya vilayətində olan
Ekbatana qalasında bir tumar tapıldı. Bu tumarda belə qeyd edilmişdi:

3 «Padşah Kirin hökmdarlığının birinci ilində Allahın Yerusəlimdəki mə'bədi barədə Kir belə əmr verib: "Bu mə'bəd – qurbanlar təqdim edilən bu yer əvvəlki bünövrəsi
üzərində bərpa edilsin. 4 Üç cərgə böyük daş,
bir cərgə təzə dirək qoyulmaqla altmış qulac hündürlükdə və altmış qulac uzunluqda olsun. Bu işin bütün xərci padşah xəzinəsindən
ödənilsin. 5 Həm də Allahın Yerusəlimdəki
mə'bədindən Navuxodonosorun çıxarıb Babilə gətirdiyi qızıl və gümüş qablar geri qaytarılsın. Bunların hamısı öz yerinə, Yerusəlimdə olan mə'bədə aparılsın. Onları Allahın mə'bədinə qoyun".

6 Ona görə Fərat çayının qərb torpaqlarının valisi Tattenay, Şetar-Boznay və yoldaşları – Fərat çayının qərb torpaqlarındakı mə'murlar
qoy indi oradan uzaqlaşsın, 7 Allah
mə'bədinin işinə qarışmasınlar. Yəhudilərin valisi və Yəhudilərin ağsaqqalları Allahın
mə'bədini öz yerində bərpa etsinlər. 8 Mən
əmr edirəm ki, Allahın bu mə'bədinin bərpasında Yəhudilərin bu ağsaqqallarına kömək edəsiniz, işlərinin dayandırılmaması üçün bu adamların xərci mütləq padşah xəzinəsindən, Fərat çayının qərb torpaqlarından yığılan vergilərdən ödənilsin.
9 Göylərin Allahına yandırma qurbanları vermək üçün hər gün ehtiyaclarına görə cavan buğalar, qoç və quzular, Yerusəlimdəki kahinlərin istədiyi miqdarda buğda, duz, şərab, zeytun yağı əskik edilmədən onlara verilsin.
10 Onlar göylərin Allahına xoş ətirli qurbanlar versinlər və buna görə padşahla övladları
üçün dua etsinlər ki, canları sağ olsun. 11 Əmr
edirəm ki, bu fərmanı dəyişdirən adamın evindən bir dirək çıxarıb dik basdırılsın və həmin adam bu dirəkdən asılsın. Qoy belə ev
xarabalığa çevrilsin. 12 Bu mə'bədi isminə
məskən edən Allah bu fərmanı dəyişdirməyə cəhd edən və Yerusəlimdəki mə'bədin dağılmasını istəyən hər padşahı və xalqı yox etsin. Mən Dara əmr edirəm, əmrim sözsüz yerinə yetirilsin».

### *Allahın mə'bədinin təqdisi*

13 O zaman Fərat çayının qərb torpaqlarının valisi Tattenay, Şetar-Boznay və yoldaşları padşah Daranın göndərdiyi bu əmri alan kimi
ona əməl etdilər. 14 Yəhudilərin ağsaqqalları
tikintini davam etdirdilər və peyğəmbər

---

*5:12 – 2Pad. 25:8-12; 2Saln. 36:17-20; Yer. 52:12-15*
*5:13 – Ezr. 1:2-11*

*6:14 – Ezr. 5:1; Haq. 1:1; Zək. 1:1*

Haqqay ilə İddo oğlu Zəkəriyyənin
peyğəmbərlik sözlərinə əsasən onların işləri
uğurlu gedirdi. İsrail Allahının buyruğuna
görə Fars padşahları Kir, Dara və
Artaxşastanın əmri ilə mə'bədi tikib
qurtardılar. 15 Mə'bəd padşah Daranın
hakimiyyətinin altıncı ili, Adar ayının üçündə
başa çatdı.
16 İsrail övladları – kahinlər, Levililər və
sürgündən qayıdanların hamısı bu Allah
mə'bədinin təqdis mərasimini sevinclə qeyd
etdilər. 17 Allahın mə'bədinin təqdisi üçün yüz
buğa, iki yüz qoç, dörd yüz quzu və bütün
İsrail üçün qəbilələrinin sayına görə günah
qurbanı olaraq on iki təkə təqdim etdilər.
18 Yerusəlimdə Allaha xidmət üçün Musanın
Kitabında yazıldığı kimi kahinləri öz
dəstələrində və Levililəri öz bölmələrində
düzdülər.

### *Pasxa bayramının keçirilməsi*

19 Sürgündən qayıdanlar Pasxa bayramını
birinci ayın on dördündə keçirdilər. 20 Çünki
kahinlərlə Levililər bir nəfər kimi özlərini pak
etdikləri üçün təmiz idilər. Levililər bütün
sürgündən qayıdanlar üçün, kahin qardaşları
və özləri üçün Pasxa qurbanı kəsdilər.
21 Sürgündən qayıdan İsrail övladları və
İsrailin Allahı Rəbbə sitayiş etmək üçün
özlərini ətraf millətlərin murdarlığından təcrid
edənlərin hamısı qurban əti yedilər. 22 Yeddi
gün sevinclə Mayasız Çörək bayramı
keçirdilər, çünki onları sevindirən Rəbb idi.
Rəbb İsrail Allahının mə'bədinin bərpasına
kömək etmək üçün Aşşur padşahının ürəyində
meyl yaratmışdı.

### *Ezranın Yerusəlimə gəlməsi*

7 1 Bu işlərdən sonra Fars padşahı
Artaxşastanın dövründə başçı kahin
Harun oğlu Eleazar oğlu Pinxas oğlu Avişua
oğlu 2 Buqqi oğlu Uzzi oğlu 3 Zerahya oğlu
Merayot oğlu Azarya oğlu Amarya oğlu
4 Axituv oğlu Sadoq oğlu Şallum oğlu
5 Xilqiya oğlu Azarya oğlu Seraya oğlu Ezra
Babildən çıxdı. 6 Babildən gələn bu Ezra
İsrailin Allahı Rəbbin Musaya verdiyi
Qanunu yaxşı bilən ilahiyyatçı idi. Allahı
Rəbbin əli onun üstündə olduğuna görə
padşah Ezranın istədiyi hər bir şeyi vermişdi.
7 Padşah Artaxşastanın hakimiyyətinin
yeddinci ilində İsrail övladlarından,
kahinlərdən, Levililərdən, ilahiçilərdən,
mə'bəddəki qapıçılardan və qulluqçulardan
bə'ziləri Yerusəlimə qayıtdı. 8 Ezra
Yerusəlimə çatanda Artaxşastanın
hökmdarlığının yeddinci ilinin beşinci ayı idi.
9 O, birinci ayın birinci günündə Babildən
yola düşüb beşinci ayın birində Yerusəlimə
çatdı, çünki Allahın mərhəmətli əli onun
üzərində idi. 10 Ezra özünü Rəbbin Qanununu
tədqiq və tətbiq etməyə, İsraildə qayda-
qanunları öyrətməyə həsr etmişdi.

### *Padşah Artaxşastanın Ezraya verdiyi məktub*

11 Rəbbin əmrlərini və İsrailə buyurduğu
qanunları öyrədən ilahiyyatçı, kahin Ezraya
padşah Artaxşasta bu məzmunda məktub
vermişdi:
12 «Padşahlar[5] padşahı Artaxşastadan
göylərin Allahının qanunlarını öyrədən kahin
Ezraya bildiriş:
13 İndi mən əmr edirəm ki, səltənətimdə
olan İsrail xalqından, kahinlərdən,
Levililərdən könüllü olaraq Yerusəlimə
getmək istəyən hər kəs səninlə getsin. 14 İndi
sən padşahla yeddi məsləhətçisi tərəfindən
əlində olan Allah qanunlarına əsasən Yəhuda
və Yerusəlimdəki vəziyyəti öyrənmək üçün
göndərilirsən. 15 Yerusəlimi məskəni edən
İsrailin Allahına padşah və məsləhətçilərinin
könüllü təqdim etdikləri qızıl-gümüşü götür.
16 Xalqın və kahinlərin İsrailin Allahının
Yerusəlimdəki mə'bədinə könüllü surətdə
verdikləri hədiyyələrlə bərabər Babil
vilayətinin hər tərəfindən yığacağın qızıl-
gümüşün hamısını götür. 17 Sonra bu pulla tez
buğalar, qoçlar, quzular, taxıl və şərab
təqdimlərini alarsan. Onları Allahınızın
Yerusəlimdəki mə'bədinin qurbangahında
təqdim edərsiniz. 18 Sən və qardaşların qızıl-
gümüşün qalan hissəsini Allahın iradəsinə
uyğun, istədiyin kimi istifadə edə bilərsiniz.
19 Allahının mə'bədində ibadət zamanı
işlətmək üçün sənə qaytarılan qabları isə
Yerusəlim Allahının hüzurunda təhvil ver.
20 Allahın mə'bədinə başqa nə lazım olarsa,
sən onu padşah xəzinəsindən ödə. 21 Mən
padşah Artaxşasta Fərat çayının qərb
torpaqlarının bütün xəzinədarlarına əmr

***6:19*** – *Çıx. 12:1-20*

[5] **7:12** 7:12-26-cı ayələr arami dilində yazılmışdır.

edirəm ki, göylərin Allahının qanunlarının
ilahiyyatçısı, kahin Ezranın hər istəyini
diqqətlə yerinə yetirin. 22 Yüz talanta qədər
gümüş, yüz kora qədər buğda, yüz bata qədər
şərab, yüz bata qədər zeytun yağı və
istədikləri qədər duz verin. 23 Göylərin
Allahının mə'bədi üçün, bu Allah tərəfindən
hər nə əmr olunarsa, yerli-yerində ona əməl
edilsin. Niyə padşahın və övladlarının ölkəsi
qəzəbə düçar olsun? 24 Sizə bildiririk ki,
kahinlərdən, Levililərdən, ilahiçilərdən, bu
Allahın mə'bədinin qapıçılarından,
qulluqçularından, digər xidmətçilərindən
xərac, vergi və gömrük istəməyə izin yoxdur.
25 Sən Ezra Allahın sənə verdiyi müdrikliyə
görə orada hakimlər və qazilər tə'yin et. Qoy
onlar Fərat çayının qərbində olan bütün xalqa
– sənin Allahının qanunlarını bilənlərin
hamısına hökm etsinlər. Bilməyənləri də sən
öyrətməlisən. 26 Sənin Allahının qanununa və
padşahın qanununa əməl etməyən adam
mütləq ölüm, sürgün, əmlak müsadirəsi yaxud
həbs cəzaları ilə cəzalansın».

27 Atalarımızın Allahı Rəbbə alqış olsun ki,
padşahın qəlbində Rəbbin Yerusəlimdə olan
mə'bədinə belə hörmət göstərmək istəyini
yaratdı. 28 Rəbb padşahın, onun
məsləhətçilərinin və bütün güclü rəislərinin
mənə yaxşı münasibətini yaratdı. Üzərimdə
olan Allahım Rəbbin əlindən qüvvət alaraq
mənimlə bərabər getmək üçün İsrailin
başçılarından bə'zilərini yanıma topladım.

### *Ezranın yol yoldaşlarının siyahısı*

8 1 Artaxşastanın padşahlığı zamanı
mənimlə bərabər Babildən gələn və
adları qeyd edilmiş nəsil başçıları bunlardır:
2 Pinxas övladlarından Gerşom, İtamar
övladlarından Daniel, Davud övladlarından
Xattuş, 3 Şekanya nəslindən, Paroş
övladlarından, Zəkəriyyə və onunla bir
nəsildən qeydə alınan yüz əlli kişi. 4 Paxat-
Moav övladlarından Zerahya oğlu
Elyehoenay və onunla bərabər iki yüz kişi.
5 Şekanya övladlarından Yaxazielin oğlu və
onunla bərabər üç yüz kişi. 6 Adin
övladlarından Yonatan oğlu Eved və onunla
bərabər əlli kişi. 7 Elam övladlarından Atalya
oğlu Yeşaya və onunla bərabər yetmiş kişi.
8 Şefatya övladlarından Mikael oğlu Zevadya
və onunla bərabər səksən kişi. 9 Yoav
övladlarından Yexiel oğlu Avdiya və onunla
bərabər iki yüz on səkkiz kişi. 10 Şelomit
övladlarından Yosifyanın oğlu və onunla
bərabər yüz altmış kişi. 11 Bevay
övladlarından Bevay oğlu Zəkəriyyə və
onunla bərabər iyirmi səkkiz kişi. 12 Azqad
övladlarından Haqqatan oğlu Yoxanan və
onunla bərabər yüz on kişi. 13 Adoniqamın
Elifelet, Yeiel, Şemaya adlı sonuncu oğulları
və onlarla bərabər altmış kişi. 14 Biqvay
övladlarından Utay, Zakkur və onlarla bərabər
yetmiş kişi.

### *Yerusəlimə qayıdış*

15 Onları Ahavaya tərəf axan çayın yanına
yığdım və üç gün orada qaldıq. Mən orada
xalqla kahinləri yoxladım, lakin orada Levi
övladlarından heç kimi tapa bilmədim.
16 Başçılardan Eliezeri, Arieli, Şemayanı,
Elnatanı, Yarivi, Elnatanı, Natanı,
Zəkəriyyəni, Meşullamı, savadlılardan
Yoyarivi və Elnatanı çağırtdırdım. 17 Sonra
onları Kasifya deyilən yerdə başçılıq edən
İddonun yanına göndərdim. Allahımızın
mə'bədinə xidmət edən adamları bizə
gətirmək üçün Kasifya deyilən yerdə İddoya
və mə'bəd qulluqçuları olan qardaşlarına nə
deyəcəklərini öyrətdim. 18 Allahımızın
mərhəmətli əli üzərimizdə olduğuna görə
İsrail oğlu Levi oğlu Maxli övladlarından
zəkalı bir adam olan Şerevya ilə oğulları və
soydaşlarından on səkkiz nəfəri, 19 Haşavyanı,
onunla bərabər Merari övladlarından
Yeşayanı və qardaşları ilə onların
övladlarından iyirmi nəfəri, 20 Levililərə
kömək etmək üçün Davudla başçılarının
tə'yin etdikləri mə'bəd qulluqçularından iki
yüz iyirmi nəfəri bizə gətirdilər. Onların
hamısı adbaad qeyd olunmuşdu.

21 Allahımızın qarşısında özümüzü kiçildib
Ondan özümüz, övladlarımız və bütün
malımız üçün təhlükəsiz yol diləməkdən ötrü
Ahava çayı yanında oruc e'lan etdim. 22 Çünki
düşmənə qarşı yolda bizə kömək etmək üçün
padşahdan əsgər və atlılar istəməyə utanırdım,
həm də padşaha belə söyləmişdik:
«Allahımızın əli yaxşılıq etmək üçün Ona
e'tiqad edənlərin üzərindədir. Lakin Ondan
dönənlərə Öz gücünü və qəzəbini göstərir».
23 Elə buna görə də biz oruc tutub Allahımıza
yalvardıq. O bizim duamızı qəbul etdi.

24 Kahinlərin rəhbərləri arasından on iki
nəfəri – Şerevya, Xaşavya ilə onların on nəfər
soydaşını seçdim. 25 Padşahın,
məsləhətçilərinin, rəislərinin və orada olan

bütün İsraillilərin Allahımızın mə'bədi üçün
təqdim etdikləri qızıl və gümüşlə bərabər
əşyaları da çəkib onlara verdim. 26 Onların
əlinə altı yüz əlli talant gümüş, yüz talant
gümüş əşya, yüz talant qızıl, 27 min dariklik
dəyəri olan iyirmi qızıl boşqab və qızıl qədər
qiymətli olan parlaq misdən iki gözəl qabı da
çəkib verdim. 28 Onlara dedim: «Siz Rəbbin
müqəddəslərisiniz, bu əşyalar da müqəddəsdir.
Bu qızılla gümüş atalarınızın Allahı Rəbbə
edilən könüllü təqdimdir. 29 Diqqətli olun!
Onları kahinlərin rəhbərləri, Levililər və
İsrailin nəsil başçıları qarşısında
Yerusəlimdəki Rəbbin mə'bədinin otaqlarında
çəkib təhvil verənə qədər qoruyun».
30 Kahinlərlə Levililər çəkilmiş qızıl və
gümüşlə qabları Yerusəlimə, Allahımızın
mə'bədinə aparmaq üçün götürdülər.

31 Yerusəlimə getmək üçün Ahava çayı
sahilindən birinci ayın on ikinci günü köçdük.
Allahımızın əli üzərimizdə idi və bizi
düşmənin əlindən, yolumuzdakı pusqulardan
qurtardı. 32 Biz Yerusəlimə çatıb orada üç gün
qaldıq. 33 Dördüncü gün isə Allahımızın
mə'bədində qızıl-gümüş əşyaları çəkib kahin
Uriyanın oğlu Meremotun əlinə verdik.
Pinxas oğlu Eleazar, habelə Levililərdən olan
Yeşua oğlu Yozavad və Binnuy oğlu Noadya
da onunla idi. 34 Əşyaların hamısı sayla, çəki
ilə təhvil veriləndə bütün çəki miqdarı yazıldı.

35 Bütün İsrail üçün sürgündən qayıdanlar
İsrailin Allahına yandırma qurbanı olaraq on
iki buğa, doxsan altı qoç, yetmiş yeddi quzu
və günah qurbanı olaraq on iki təkə təqdim
etdilər. Bunların hamısı Rəbbə təqdim edilən
yandırma qurbanları idi. 36 Sonra onlar
padşahın əmrlərini padşahın canişinlərinə və
Fərat çayının qərb tərəfindəki valilərinə
verdilər. Onlar da xalqa və Allahın mə'bədinə
kömək etdilər.

### *Ezranın tövbə duası*

9 1 Bu işlər qurtarandan sonra rəhbərlər
mənə yaxınlaşıb dedilər: «Kahinlərlə
Levililər daxil olmaqla İsrail xalqı
ətraflarındakı xalqların – Kən'anlıların,
Xetlilərin, Perizlilərin, Yevusluların,
Ammonluların, Moavlıların, Misirlilərin,
Emorluların iyrənc adətlərinə uyub özlərini
onlardan fərqləndirməyiblər. 2 Belə ki onlar
özlərinə və oğullarına ətraflarındakı xalqların
qızlarından alıblar. Bununla müqəddəs xalq
başqa xalqlarla qarışıb. Rəhbərlərlə
mə'murlar bu xəyanətə ilk yol açmışlar».
3 Mən bu sözü eşidəndə paltarımla cübbəmi
cırıb saç-saqqalımı yolaraq çarəsiz oturdum.
4 Sürgündən qayıdanların bu xəyanətinə görə
İsrail Allahının sözlərindən lərzəyə gələnlərin
hamısı yanıma yığıldı. Mən axşam qurbanı
təqdim edilənə qədər çaşqın-çaşqın oturdum.

5 Axşam qurbanı vaxtı pərişan halda ayağa
qalxdım. Paltarım və cübbəm cırıq idi.
Dizüstə oturub əllərimi Allahım Rəbbə açıb
6 belə dua etdim:

«Ey Allahım, utanıram! Üzümü Sənə –
Allahıma qaldırmağa xəcalət çəkirəm, çünki
təqsirlərimiz başımızdan aşıb, günahlarımız
böyüyərək göylərə çatıb. 7 Atalarımızın
dövründən bu günə qədər böyük günah
içindəyik. Ona görə də hər zaman bugünkü
kimi biz, padşahlarımız, kahinlərimiz
təqsirlərimiz üzündən yadelli padşahlara
təslim edilib qılınca, əsirliyə, talana,
rüsvayçılığa düçar olduq. 8 İndi isə bizə
Allahımız Rəbb tərəfindən ani olaraq
mərhəmət göstərildi. Əsirlikdən qurtulub sağ
qalan bir neçə adamı Allahımız bizim üçün
saxladı. Müqəddəs məkanında bizə möhkəm
bir yer verdi ki, gözümüzə nur versin, bizi
köləlikdən qurtarıb bir az həyata qovuşdursun.
9 Axı biz köləyik, lakin Allahımız bizi
köləlikdə qoymadı. Bizi Allahımızın
mə'bədini bərpa etmək, onun xarabalıqlarını
abad etmək üçün Yəhuda ilə Yerusəlimdə
özümüzə divar çəkməyə ruhlandırdı. Ona
görə də Fars padşahlarının gözündə bizə qarşı
lütf yaratdı.

10 Ey Allahımız, artıq daha nə istəyə bilərik?
Çünki Sənin əmrlərini tərk etmişdik. 11 Sən
əmrlərini qulların peyğəmbərlər vasitəsilə
verib dedin: "Mülk olaraq almaq üçün
getdiyiniz ölkə öz əhalisinin pozğunluğu ilə,
oranı başdan-başa dolduran iyrənc adətləri və
murdarlıqları ilə çirkaba batan ölkədir. 12 Buna
görə də nə qızlarınızı onların oğullarına verin,
nə də qızlarından oğullarınıza alın. Əgər
qüvvətli olmaq, bu torpağın ne'mətlərini
yemək istəyirsinizsə, heç vaxt onların
salamatlığı və firavanlığı üçün çalışmayın.
Onda bu torpağı övladlarınıza irs olaraq əbədi
saxlayarsınız".

---

***9:12*** *– Çıx. 34:11-16; Qanun. 7:1-5*
***9:12*** *– Qanun. 23:6*

13 Hər şey pis işlərimizdən və böyük
günahlarımızdan ötrü başımıza gəldi, lakin, ey
Allahımız, Sən bizi təqsirlərimizin layiq
olduğundan az cəzalandırdın. Əsirlikdən
qurtulub sağ qalan bir neçə adamı – bunları
bizə verdin. 14 Bundan sonra yenə əmrlərinimi
pozaq? Belə iyrənc işlər görən xalqlarla
qohummu olaq? Biz qurtarana, sağ qalıb
qurtula bilməyənə qədər bizə
qəzəblənməyəcəksənmi? 15 Ey İsrailin Allahı
Rəbb, Sən adilsən! Bugünkü kimi biz kiçik
bir dəstə halında sağ qalmışıq. Budur, Sənin
qarşında günah içindəyik və buna görə heç
birimiz Sənin qarşında dayana bilmirik».

### *Yadellilərlə nikahın pozulması*

10 1 Ezra Allahın mə’bədinin
qarşısında ağlayıb yerə sərilərək dua
və e’tiraf edərkən İsraillilərdən çox böyük bir
camaat – kişilər, qadınlar və uşaqlar onun
yanına yığıldı. Xalq da acı-acı ağlayırdı.
2 Elam övladlarından Yexiel oğlu Şekanya
Ezraya müraciət edib dedi: «Biz Allahımıza
xəyanət edərək ətrafımızdakı xalqlardan
yadelli arvadlar aldıq. Buna baxmayaraq hələ
də İsraillilərin ümidi var. 3 Ağamızın və
Allahımızın əmri üzərində əsənlərin
məsləhətinə görə bütün belə arvadları və
onlardan doğulanları ataq. Gəlin bunun üçün
indi Allahımızla əhd bağlayaq. Qoy bu
Qanuna görə edilsin. 4 Qalx, çünki bu işin
məs’uliyyətini daşıyan sənsən və biz də
səninləyik. Ürəkli ol, işə başla!»

5 Ezra ayağa qalxdı. Kahinlərin rəhbərlərinə,
Levililərə və digər İsraillilərə bu sözü yerinə
yetirmələri üçün and içdirdi. Onlar da and
içdilər. 6 Ezra Allah mə’bədinin qarşısından
ayrılıb Elyaşivin oğlu Yehoxananın otağına
girdi. Gecəni orada keçirib nə çörək yedi, nə
də su içdi, çünki sürgündən qayıdanların bu
xəyanətinə görə yas tuturdu. 7 Yəhudada və
Yerusəlimdə sürgündən qayıdanların
hamısına e’lan etdilər ki, Yerusəlimə
yığılsınlar. 8 Başçıların və ağsaqqalların
məsləhətinə görə üç gün ərzində buraya
gəlməyən hər adamın bütün əmlakı müsadirə
ediləcək və özü də sürgündən qayıdan
camaatın içərisindən çıxarılacaq.

9 Yəhudanın və Binyaminin bütün adamları
üç gün ərzində Yerusəlimə yığıldı. Bu
doqquzuncu ayın iyirmisində oldu. Bütün
xalq bu hadisədən, həm də yağışdan ötrü əsə-
əsə Allahın mə’bədinin qarşısında, meydanda
oturdu. 10 Kahin Ezra ayağa qalxıb onlara dedi:
«Siz xəyanət etmisiniz. İsrailin günahını daha
da artıraraq yadelli arvadlar almısınız. 11 İndi
atalarınızın Allahı Rəbbə öz günahlarınızı
e’tiraf edin və Onun iradəsini yerinə yetirin.
Ətrafınızdakı xalqlardan, yadelli arvadlardan
ayrılın». 12 Bütün camaat bərkdən cavab verib
dedi: «Bəli, haqlısan, Sənin sözlərinə əməl
etmək bizim borcumuzdur. 13 Amma yağış
vaxtıdır, bayırda dayanmağa taqətimiz yoxdur,
xalq isə çoxdur. Bu iş bir-iki günün işi deyil.
Çünki belə əməllə günahımızı artırmışıq.
14 Qoy bütün xalqı rəhbərlərimiz təmsil etsin.
Bu işə görə Allahımızın coşan qəzəbi
soyuyanadək şəhərlərimizdəki hər yadelli
arvad alan şəxs şəhər ağsaqqalları və
hakimlərlə bərabər tə’yin olunacaq vaxtda
buraya gəlsin». 15 Buna qarşı yalnız Asahel
oğlu Yonatan və Tiqva oğlu Yaxzeya çıxdı.
Meşullamla Levili Şabbetay da onlara kömək
etdi.

16 Sürgündən qayıdanlar bu sözə əməl etdi.
Kahin Ezra hər nəsildən nəsil başçısını seçib
hamısının adını bəyan etdi. Onuncu ayın
birində isə oturub bu işi araşdırmağa
başladılar. 17 Onlar birinci ayın birinci gününə
qədər yadelli arvad alanların hamısı barədə
lazımi qərar çıxartdılar.

18 Kahin övladları arasında yadelli arvad
alanlardan bunlar tapıldı: Yosadaqın oğlu
Yeşua övladlarından və qardaşlarından
Maaseya Eliezer, Yariv və Gedalya. 19 Onlar
da arvadlarını boşayacaqlarına dair əlbir oldu
və öz təqsirlərinə görə təqsir qurbanı olaraq
bir qoç təqdim etdi. 20 İmmer övladlarından
Xanani və Zevadya, 21 Xarim övladlarından
Maaseya, Eliya, Şemaya, Yexiel, Uzziya,
22 Paşxur övladlarından Elyoenay, Maaseya,
İsmail, Netanel, Yozavad və Elasa;

23 Levililərdən: Yozavad, Şimey, Qelaya,
yə’ni Qelita, Petahya, Yəhuda və Eliezer;

24 İlahiçilərdən: Elyaşiv, mə’bəd
qapıçılarından Şallum, Telem və Uri;

25 Digər İsraillilərdən – Paroş övladlarından
Ramya, İzziya, Malkiya, Miyamin, Eleazar,
Malkiya və Benaya; 26 Elam övladlarından
Mattanya, Zəkəriyyə, Yexiel, Avdi, Yeremot
və Eliya; 27 Zattu övladlarından Elyoenay,
Elyaşiv, Mattanya, Yeremot, Zavad və Aziza;
28 Bevay övladlarından Yehoxanan, Xananya,
Zabbay, Atlay; 29 Bani övladlarından
Meşullam, Malluk, Adaya, Yaşuv, Şeal,

Yeremot; 30 Paxat-Moav övladlarından Adna,
Kelal, Benaya, Maaseya, Mattanya, Besalel,
Binnuy və Menaşşe; 31 Xarim övladlarından
Eliezer, İşşiya, Malkiya, Şemaya və Şimeon,
32 Binyamin, Malluk, Şemarya; 33 Xaşum
övladlarından Mattenay, Mattata, Zavad,
Elifelet, Yeremay, Menaşşe, Şimey; 34 Bani
övladlarından Maaday, Amram, Uel,
35 Benaya, Bedeya, Keluhi, 36 Vanya, Meremot,
Elyaşiv, 37 Mattanya, Mattenay, Yaasay,
38 Bani, Binnuy, Şimey, 39 Şelemya, Natan,
Adaya, 40 Maknadvay, Şaşay, Şaray, 41 Azarel,
Şelemya, Şemarya, 42 Şallum, Amarya, Yusif;
43 Nevo övladlarından Yeiel, Mattitya, Zavad,
Zevina, Yadday, Yoel və Benaya.

44 Bu adamların hamısı yadelli arvad
almışdı və bə’zilərinin bu arvadlardan
uşaqları da var idi.